| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 18.05.2018 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1143-VQ |
| **ADI** | Ələt azad iqtisadi zonası haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 05-06-2018, Nəşr nömrəsi: 125), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-06-2018, Nəşr nömrəsi: 06, Maddə nömrəsi: 1180) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 05.06.2018 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 110.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201805181143 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 05.06.2018 |

**Ələt azad iqtisadi zonası haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikası Ələt azad iqtisadi zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyən edir.

## 1-ci fəsil
## ÜMUMİ MÜDDƏALAR

### Maddə 1. Bu Qanunda istifadə olunan anlayışlar

1.0. Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. Ələt azad iqtisadi zonası – bu Qanuna uyğun olaraq, sahibkarlıq və investisiya fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan zona (bundan sonra – Azad Zona);

1.0.2. Azad Zona səlahiyyətli qurumu – bu Qanuna uyğun yaradılan Azad Zonanın fəaliyyətinə məsul olan, Azad Zonada tənzimləməni və nəzarəti həyata keçirən inzibati qurum;

1.0.3. Azad Zona inzibati müəssisələri – developer, mübahisələrin həlli qurumları, Azad Zonada fəaliyyət göstərən hər hansı digər inzibati qurum, habelə Azad Zona səlahiyyətli qurumu tərəfindən təsis olunmuş hüquqi şəxs və ya Azad Zona səlahiyyətli qurumunun tərəfdaş olduğu hər hansı digər hüquqi şəxs;

1.0.4. Azad Zona hüquqi şəxsi – Azad Zona inzibati müəssisələri istisna olmaqla, Azad Zonada Azad Zona qanunvericiliyinə uyğun təsis edilən və fəaliyyət göstərən hər hansı hüquqi şəxs;

1.0.5. Azad Zona ərazisi – Azad Zonanın yaradılması və fəaliyyəti məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən ərazi;

1.0.6. Azad Zona qanunvericiliyi – bu Qanun və onun əsasında qəbul edilən daxili qaydalar;

*1.0.7. Azad Zona rezidenti – Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalarda müəyyən edilən hallar istisna olmaqla, Azad Zonada sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan və orada yaşamaq üçün icazəsi olan hər hansı fiziki şəxs;*[1]

1.0.8. Biznes Xidmətləri Mərkəzi – Azad Zona səlahiyyətli qurumu tərəfindən yaradılan, Azad Zonada bütün lisenziyaların, icazələrin, vizaların və təsdiqlərin verilməsinə məsul olan Azad Zona inzibati qurumu;

1.0.9. daxili qaydalar – Azad Zonanın fəaliyyəti ilə bağlı olan münasibətlərin tənzimlənməsi məqsədi ilə Azad Zona səlahiyyətli qurumu tərəfindən qəbul edilən qaydalar;

1.0.10. developer – Azad Zona səlahiyyətli qurumu tərəfindən Azad Zonanın fəaliyyət və inkişaf məqsədləri üçün təsis olunan Azad Zona inzibati müəssisəsi;

1.0.11. developer ərazisi – Azad Zona səlahiyyətli qurumu tərəfindən developerə ayrılmış Azad Zona ərazisinin bir hissəsi;

1.0.12. ezam olunan heyət – əsas iqtisadiyyatın müvafiq orqanının Azad Zonada müəyyən hüquqları və vəzifələri yerinə yetirmək üçün ezam etdiyi heyət;

1.0.13. əmək qaydaları – Azad Zonada əmək münasibətlərini tənzimləyən daxili qaydalar;

1.0.14. əsas iqtisadiyyat – Azad Zona istisna olmaqla, Azərbaycan Respublikasının digər yurisdiksiyası;

1.0.15. əsas iqtisadiyyat orqanları – Azərbaycan Respublikasının dövlət orqanları, bələdiyyələri və hüquqi şəxsləri;

1.0.16. əsas iqtisadiyyat qanunvericiliyi – Azərbaycan Respublikasının normativ hüquqi aktları;

1.0.17. əsas kommunal xidmətlər – əsas iqtisadiyyatda su, elektrik, qaz təchizatı, telekommunikasiya xidmətləri və digər əsas kommunal xidmətlər;

*1.0.17-1. əsas iqtisadiyyatın vergi ödəyicisi – əsas iqtisadiyyatın qanunvericiliyinə uyğun olaraq yaradılmış və əsas iqtisadiyyatda, eyni zamanda Azad Zonada fəaliyyət göstərən və fəaliyyətinə əsas iqtisadiyyatın qanunvericiliyi tətbiq edilən vergi ödəyicisi;*[2]

1.0.18. əsas iqtisadiyyat təchizatçıları – kommunal və digər xidmətlərin göstərilməsinə məsul olan əsas iqtisadiyyatın hüquqi şəxsləri;

1.0.19. İdarə Heyəti – Azad Zona səlahiyyətli qurumunun fəaliyyətinə və idarə edilməsinə məsul olan kollegial orqan;

1.0.20. mübahisələrin həlli qurumları – Azad Zonada mübahisələrə baxılmasını və onların həllini təmin edən qurumlar;

1.0.21. reyestr – hüquqi şəxslərin, maddi və qeyri-maddi əmlakların qeydiyyatı.

### Maddə 2. Azad Zonanın yaradılması

Azad Zona müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azad Zona ərazisində yaradılır.

### Maddə 3. Azad Zona qanunvericiliyi

3.1. Azad Zonada Azad Zona qanunvericiliyi tətbiq edilir.

3.2. Azad Zonada əsas iqtisadiyyat qanunvericiliyi yalnız *Azad Zona qanunvericiliyində* göstərilən hallarda tətbiq edilir.[3]

3.3. Azad Zona qanunvericiliyi ilə əsas iqtisadiyyat qanunvericiliyi arasında ziddiyyət yaranarsa, Azad Zona qanunvericiliyi tətbiq edilir.

3.4. Bu Qanun ilə daxili qaydalar arasında ziddiyyət yaranarsa, bu Qanun tətbiq olunur.

3.5. Azad Zona səlahiyyətli qurumu Azad Zona qanunvericiliyinin ingilis dilinə tərcümə edilmiş mətnlərinin autentikliyini təsdiq edir. Azad Zona səlahiyyətli qurumu tərəfindən autentikliyi təsdiq edilmiş Azad Zona qanunvericiliyi Azərbaycan dilində olan Azad Zona qanunvericiliyi ilə eyni hüquqi qüvvəyə malikdir. Azad Zona daxili qaydaları Azərbaycan və ingilis dillərində dərc olunur.

***Maddə 4. Azad Zonada tətbiq edilən əsas iqtisadiyyat qanunvericiliyi***

*4.1. Bu Qanunun müddəaları nəzərə alınmaqla, Azad Zonada əsas iqtisadiyyatın aşağıdakı qanunvericiliyi tətbiq edilir:*

*4.1.1. əsas iqtisadiyyatın cinayət qanunvericiliyi;*

*4.1.2. əsas iqtisadiyyatın cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyi.*[4]

## 2-ci fəsil
## AZAD ZONANIN İDARƏ EDİLMƏSİ VƏ İNKİŞAFI

**Maddə 5. Azad Zona səlahiyyətli qurumu**

5.0. Azad Zona səlahiyyətli qurumu müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılır və Azad Zonanın fəaliyyətində aşağıdakılarla bağlı tənzimləməni və nəzarəti həyata keçirir:

5.0.1. Azad Zona rezidentlərinin, Azad Zona hüquqi şəxslərinin və Azad Zona inzibati müəssisələrinin fəaliyyəti;

5.0.2. Azad Zona ərazisi;

5.0.3. Azad Zonada yerləşən bütün əmlak və aktivlər;

5.0.4. Azad Zonanın strateji məqsədləri ilə bağlı hər hansı digər məsələlər.

**Maddə 6. Azad Zona səlahiyyətli qurumunun hüquqları və vəzifələri**

6.1. Azad Zona səlahiyyətli qurumunun aşağıdakı hüquqları vardır:

6.1.1. Azad Zona üçün qabaqcıl beynəlxalq təcrübəyə və standartlara uyğun daxili qaydaları hazırlamaq, qəbul etmək və dəyişikliklər etmək;

6.1.2. Azad Zonanın beynəlxalq standartlara uyğun idarəetmə sistemini formalaşdırmaq məqsədi ilə Azad Zona inzibati müəssisələrini yaratmaq, maliyyələşdirmək, səlahiyyətləndirmək və yoxlamaq;

6.1.3. hüquq və vəzifələri üçüncü şəxslərə ötürmək;

6.1.4. sahib olduğu səhmləri (payları) satmaq və ya onlar barəsində hər hansı digər şəkildə sərəncam vermək;

6.1.5. müvafiq məsləhətçini, o cümlədən üçüncü tərəf məsləhətçisini və ya podratçını cəlb etmək;

6.1.6. Azad Zonanın fəaliyyəti ilə bağlı kömək və əməkdaşlıq üçün əsas iqtisadiyyat orqanlarına müraciət etmək;

6.1.7. Azad Zona səlahiyyətli qurumu və Azad Zona inzibati müəssisələri tərəfindən göstərilən xidmətlər üçün ödənişləri və digər maliyyə ödənişlərini müəyyənləşdirmək və toplamaq;

6.1.8. mənşə sertifikatlarını vermək;

6.1.9. Azad Zona qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirlərini müəyyən etmək, o cümlədən cərimələri tətbiq etmək və toplamaq;

6.1.10. öz büdcəsini və Azad Zona inzibati müəssisələrinin büdcəsini müəyyənləşdirmək və təsdiq etmək;

6.1.11. dövlət maliyyələşməsi üçün müraciət etmək və (və ya) banklardan, maliyyə institutlarından və digər qurumlardan maliyyə vəsaitləri almaq;

6.1.12. istənilən maliyyə vəsaitlərini cəlb etmək məqsədi ilə əmlak və aktivlər üzərində ipoteka və ya başqa şəkildə yüklülük yaratmaq;

6.1.13. bank hesabları açmaq;

6.1.14. istənilən işgüzar fəaliyyətlə məşğul olmaq;

6.1.15. Azad Zonaya investisiyaların cəlb edilməsi üçün biznes təşviqlərini təmin etmək;

6.1.16. üçüncü tərəf podratçılar və ya xidmət təchizatçıları ilə müqavilələr bağlamaq;

*6.1.16-1. öz adından əqdlər bağlamaq, əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış etmək;*

6.1.17. öz vəzifələrini yerinə yetirmək üçün digər hüquqları həyata keçirmək.

6.2. Azad Zona səlahiyyətli qurumunun vəzifələri aşağıdakılardır:

6.2.1. Azad Zonanın strateji məqsədlərinə uyğun olaraq Azad Zonanın fəaliyyətini, inkişafını, idarə olunmasını və maliyyələşdirilməsini təmin etmək;

6.2.2. Azad Zonada qabaqcıl beynəlxalq təcrübənin tətbiqini təşviq etmək;

6.2.3. Azad Zonaya yerli və xarici investisiyaları cəlb etmək;

6.2.4. əlverişli investisiya, biznes və sahibkarlıq mühitinin formalaşdırılması, investorun etimadının artırılması, bürokratiyanın maksimum dərəcədə aradan qaldırılması və istənilən yerdə onlayn və texnoloji həllərin tətbiq edilməsi məqsədi ilə şəffaf, səmərəli və mükəmməl tənzimləyici çərçivə yaratmaq;

6.2.5. qabaqcıl beynəlxalq təcrübəyə və standartlara uyğun gələn, Azad Zonada aşağıdakı sahələrdə tətbiq olunan məcburi xarakterli daxili qaydaları qəbul etmək:

6.2.5.1. Azad Zona hüquqi şəxslərinin və Azad Zona inzibati müəssisələrinin fəaliyyəti;

6.2.5.2. maliyyə və sığorta xidmətləri;

6.2.5.3. torpaq münasibətləri;

6.2.5.4. gömrük işi;

6.2.5.5. əmək münasibətləri;

6.2.5.6. miqrasiya;
6.2.5.7. vergi tənzimlənməsi;
6.2.5.8. valyuta əməliyyatları aparmaq azadlığı;
6.2.5.9. müflisləşmə və iflas;
6.2.5.10. notariat fəaliyyəti;
6.2.5.11. əqli mülkiyyət;
6.2.5.12. ətraf mühit;
6.2.5.13. rəqabət;
6.2.5.14. mənşə sertifikatları;
6.2.5.15. mübahisələrin həlli;
6.2.5.16. çirkli pulların yuyulması və "öz müştərini tanı" yoxlaması;
6.2.5.17. zəruri hesab etdiyi digər sahələr.

6.2.6. Azad Zona inzibati müəssisələrinin vəzifə və öhdəliklərini icra etməsi üçün tələb olunan təşkilati strukturu, qaydaları və prosedurları müəyyən etmək;

6.2.7. Azad Zona hüquqi şəxslərinin, Azad Zona rezidentlərinin və Azad Zona inzibati müəssisələrinin fəaliyyətini tənzimləmək;

6.2.8. Azad Zonada yerləşən əmlak və aktivlər ilə bağlı münasibətləri tənzimləmək;

6.2.9. Azad Zonanın strateji məqsədlərinə nail olmaq üçün əsas iqtisadiyyat orqanları ilə əlaqələndirməni həyata keçirmək;

6.2.10. Azad Zona inzibati müəssisələrinin müvafiq vəzifələrini və öhdəliklərini yerinə yetirmək üçün maliyyələşdirilməsini təmin etmək;

6.2.11. Azad Zona inzibati müəssisələrinin fəaliyyətinə və strateji istiqamətlərinə dair hesabatları hazırlamaq və müvafiq icra hakimiyyəti orqanına təqdim etmək;

6.2.12. Azad Zonanın strateji məqsədlərinə nail olmaq üçün digər vəzifələri həyata keçirmək.

6.3. Azad Zona səlahiyyətli qurumu öz hüquq və vəzifələrini Azad Zona qanunvericiliyinə, qabaqcıl beynəlxalq təcrübəyə, beynəlxalq standartlara və Azad Zonanın strateji məqsədlərinə uyğun həyata keçirir.

**Maddə 7. Azad Zona səlahiyyətli qurumunun idarə olunması**

7.1. Azad Zona səlahiyyətli qurumu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş təşkilati struktura uyğun idarə olunur.

7.2. Azad Zona səlahiyyətli qurumunun idarə olunmasına, strateji məqsədlərinə çatmasına və fəaliyyətinə görə İdarə Heyəti məsuliyyət daşıyır.

7.3. İdarə Heyəti Azad Zona səlahiyyətli qurumunun idarə olunması ilə bağlı müvafiq sənədləri qəbul edir.

7.4. İdarə Heyətinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunmuş sədr rəhbərlik edir. İdarə Heyəti birbaşa müvafiq icra hakimiyyəti orqanına hesabat verir.

**Maddə 8. Azad Zona səlahiyyətli qurumunun maliyyə məsələləri**

8.1. Azad Zona səlahiyyətli qurumu maliyyə cəhətdən müstəqildir və öz büdcəsini təsdiq etmək hüququna malikdir.

8.2. Dövlət Azad Zonanın, Azad Zona səlahiyyətli qurumunun və hər bir Azad Zona inzibati müəssisəsinin öz hüquq və vəzifələrini həyata keçirməsi üçün maliyyələşməsini təmin edir.

8.3. Azad Zona səlahiyyətli qurumu aşağıdakı mənbələrdən gəlir əldə edir:
8.3.1. tətbiq olunan rüsumlar və digər ödənişlərdən;
8.3.2. developerlərdən və ya Azad Zona səlahiyyətli qurumuna məxsus digər hüquqi şəxslərdən alınan dividendlərdən və ödəmələrdən;
8.3.4. dövlət tərəfindən təmin olunan hər hansı digər mənbələrdən.

**Maddə 9. Əsas iqtisadiyyat orqanlarının səlahiyyətlərinin istisna edilməsi**

9.1. Azad Zona qanunvericiliyində digər hallar nəzərdə tutulmadıqda, əsas iqtisadiyyat orqanları aşağıdakı səlahiyyətlərə malik deyildir:
9.1.1. Azad Zonada hər hansı yurisdiksiyaya sahib olmaq;
9.1.2. Azad Zona hüquqi şəxslərinin, Azad Zona inzibati müəssisələrinin və ya Azad Zona rezidentlərinin fəaliyyətini tənzimləmək və ya fəaliyyətinə nəzarət etmək.

9.2. Əsas iqtisadiyyat orqanları və əsas iqtisadiyyat təchizatçıları, Azad Zona səlahiyyətli qurumunun və ya Azad Zona inzibati müəssisələrinin müraciətinə əsasən, Azad Zona səlahiyyətli qurumuna və Azad Zona inzibati müəssisələrinə Azad Zonanın inkişafında kömək göstərirlər.

**Maddə 10. Developer**

10.1. Azad Zona səlahiyyətli qurumu bir və ya bir neçə developer təsis edir. Developer ərazisinin istifadəsinə və inkişafına görə məsuliyyəti developer daşıyır.

10.2. Azad Zona səlahiyyətli qurumu hər bir developerin hüquq və vəzifələrini, idarəetmə qaydalarını və məsuliyyətini müəyyənləşdirən daxili qaydaları qəbul edir.

**Maddə 11. Developerin vəzifələri və hüquqları**

11.1. Developerin vəzifələri aşağıdakılardır:
11.1.1. Azad Zona ərazisinin və (və ya) developer ərazisinin baş planını tərtib etmək;
11.1.2. developer ərazisində infrastrukturun (o cümlədən zəruri daşınmaz əmlak obyektləri də daxil olmaqla) yaradılmasını və inkişafını təmin etmək;
11.1.3. developer ərazisində infrastrukturdan, daşınmaz əmlakdan və digər aktivlərdən istifadə etmək və onların saxlanmasını təmin etmək;
11.1.4. developer ərazisində kommunal və digər təchizatçıların fəaliyyətini əlaqələndirmək;
11.1.5. developer ərazisində qabaqcıl texnoloji vasitələrdən istifadə etmək;
11.1.6. Azad Zonaya yerli və xarici investisiyaları, xüsusən əsas infrastrukturun (o cümlədən zəruri daşınmaz əmlak obyektləri də daxil olmaqla) yaradılması və inkişafı ilə bağlı özəl sektordan və digər mənbələrdən investisiyaları cəlb etmək;
11.1.7. özünün və iştirak etdiyi hər hansı digər hüquqi şəxsin öz vəzifə və öhdəliklərini yerinə yetirməsi üçün kifayət qədər maliyyə vəsaitinə malik olmasını təmin etmək;
11.1.8. Azad Zonanın strateji məqsədlərinə nail olmaq üçün digər vəzifələr.
11.2. Developer öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:
11.2.1. developer ərazisinin idarə olunması, istifadəsi və saxlanması ilə əlaqədar idarəetmə, əməliyyat və təminat müqavilələri və ya oxşar tipli digər kommersiya müqavilələri bağlamaq;
11.2.2. developer ərazisini icarəyə vermək və ya üzərində başqa şəkildə sərəncam vermək;
11.2.3. hüquqi şəxslər təsis etmək və ya hüquqi şəxslərdə iştirak etmək (payçı, səhmdar və s. kimi), birgə inkişaf razılaşmaları, konsessiya müqavilələri və ya oxşar tipli digər kommersiya müqavilələri bağlamaq;
11.2.4. Azad Zona daxilində və ya xaricində hüquqi şəxslər təsis etmək, onlara investisiya qoymaq və digər investisiya fəaliyyətlərini həyata keçirmək;
11.2.5. hüquq və vəzifələrini ötürmək (müqavilə və ya hər hansı digər əsasla) və ya seçilmiş podratçılara vermək;
11.2.6. kənar məsləhətçilər cəlb etmək və ya məsləhət komitəsi yaratmaq;
11.2.7. banklardan, maliyyə institutlarından və digər qurumlardan maliyyə vəsaitləri cəlb etmək;
11.2.8. hər hansı maliyyə vəsaitlərini cəlb etmək məqsədi ilə əmlak və aktivləri üzərində ipoteka və ya hər hansı digər formada yüklülük yaratmaq;
11.2.9. bank hesabları açmaq;
11.2.10. özünün iştirak etdiyi hüquqi şəxslərin və ya üçüncü şəxslərin öhdəliklərinə zəmanət vermək;
11.2.11. Azad Zona səlahiyyətli qurumu tərəfindən müəyyən edilmiş digər hüquqları həyata keçirmək.
11.3. Developer öz hüquqlarını və vəzifələrini Azad Zona qanunvericiliyinə, qabaqcıl beynəlxalq təcrübəyə, beynəlxalq standartlara və Azad Zonanın strateji məqsədlərinə uyğun həyata keçirir.

**Maddə 12. Developerin maliyyələşdirilməsi**

12.1. Developer Azad Zona səlahiyyətli qurumu tərəfindən kapitallaşdırılır və maliyyələşdirilir.
12.2. Developer aşağıdakı mənbələrdən gəlir əldə edir:
12.2.1. developer ərazisinin icarəyə verilməsindən və ya onun barəsində başqa şəkildə sərəncam verilməsindən;
12.2.2. kommersiya razılaşmalarından;
12.2.3. investisiya qoyuluşlarından;
12.2.4. Azad Zona qanunvericiliyində nəzərdə tutulan digər mənbələrdən.
12.3. Hər bir developer öz iş proqramını və büdcəsini daxili qaydalara uyğun müəyyən edir. Hər bir developerin iş proqramı və büdcəsi Azad Zona səlahiyyətli qurumu tərəfindən təsdiq olunur.

**Maddə 13. Xidmətlər və nəqliyyat**

13.1. Azad Zona səlahiyyətli qurumu Azad Zonanın kommunal və digər xidmətlər ilə təchiz olunmasını təmin etmək üçün daxili qaydalar formasında kommunal və digər xidmət qaydaları qəbul edir.
13.2. Əsas iqtisadiyyat təchizatçıları, Azad Zona səlahiyyətli qurumunun müraciəti əsasında, Azad Zonada əsas kommunal xidmətlərdən və digər xidmətlərdən istifadənin təmin edilməsi məqsədi ilə Azad Zona ərazisinin sərhədinə qədər bütün zəruri infrastrukturun yaradılmasını təmin edir, əsas kommunal xidmətləri və digər xidmətləri Azad Zonanın sərhədində topdansatış qiymətləri ilə təqdim edir.
13.3. Azad Zona səlahiyyətli qurumu tərəfindən müraciət olunduğu hallarda, əsas iqtisadiyyatın müvafiq ictimai xidmət təchizatçıları Azad Zona səlahiyyətli qurumu ilə razılaşdırılmış şərtlər əsasında Azad Zonada ictimai xidmətləri təmin edirlər.
13.4. Əsas iqtisadiyyatın müvafiq orqanı, Azad Zona səlahiyyətli qurumunun müraciətinə əsasən, Azad Zona ilə bağlı nəqliyyat əlaqələrinin qurulmasını təmin edir.

**3-cü fəsil**
**AZAD ZONA HÜQUQİ ŞƏXSLƏRİNİN FƏALİYYƏTİ**

**Maddə 14. Azad Zona hüquqi şəxslərinin Azad Zonada fəaliyyəti**

14.1. Azad Zona hüquqi şəxslərinin təsis olunmasını və fəaliyyətini tənzimləyən daxili qaydaları Azad Zona səlahiyyətli qurumu qəbul edir. Bu qaydalarda aşağıdakılar göstərilir:
14.1.1. Azad Zona hüquqi şəxslərinin təsis olunmasına aid tələblər;
14.1.2. Azad Zona hüquqi şəxslərinin təşkilati-hüquqi formaları;
14.1.3. Azad Zona hüquqi şəxslərinin, onların maddi və qeyri-maddi əmlakları üzərində hüquqlarının, təminatlarının

və digər yüklülüklərinin qeydiyyata alınması üçün reyestrin yaradılması;

14.1.4. Azad Zona hüquqi şəxslərinin qeydiyyata alınmasına dair müraciətlər, bu cür hüquqi şəxslərin hesabatı və idarə edilməsi ilə bağlı qaydalar və tələblər;

14.1.5. Azad Zonanın strateji məqsədlərinə nail olmaq üçün digər məsələlər.

14.2. Azad Zona hüquqi şəxslərinin nizamnamə kapitalının və investisiya qoyuluşunun yüz faizinin xarici hüquqi və fiziki şəxslərə məxsus olmasına məhdudiyyət qoyulmur.

**Maddə 15. Lisenziyalaşdırma və icazə**

15.0. Azad Zona səlahiyyətli qurumu Azad Zona daxilində sahibkarlıq və investisiya fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaları və icazələri müəyyən etmək, onlara dair tələbləri və onların verilməsi qaydalarını tənzimləmək məqsədi ilə daxili qaydalar formasında lisenziyalaşdırma və icazə qaydaları qəbul edir. Lisenziyalaşdırma və icazə qaydalarında aşağıdakılar göstərilir:

15.0.1. Azad Zonada lisenziyalaşdırma, icazə, viza və təsdiq tələblərinin, o cümlədən müvafiq lisenziyaların, icazələrin, vizaların və təsdiqlərin sayının, onların alınması xərclərinin və müddətlərinin, habelə hər bir müraciət üçün lazım olan sənədlərin sayının müəyyən edilməsi;

15.0.2. Azad Zonada bütün lisenziyaların, icazələrin, vizaların, təsdiqlərin və digər rəsmi sənədlərin verilməsinə məsul olan və "bir pəncərə" qaydasında işləyən Biznes Xidmətləri Mərkəzinin yaradılması və fəaliyyəti;

15.0.3. Azad Zonanın strateji məqsədlərinə nail olmaq üçün digər məsələlər.

**Maddə 16. Azad Zonada vergi tənzimlənməsi**

*16.1. Azad Zona səlahiyyətli qurumu, Azad Zona inzibati müəssisələri və Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalarda müəyyən edilən hallarda Azad Zonada fəaliyyət göstərən Azad Zona hüquqi şəxsləri Azad Zonadakı fəaliyyətlərinə aid olan bütün vergilərdən azaddırlar. Əsas iqtisadiyyatdan Azad Zonaya və Azad Zonadan əsas iqtisadiyyata malların, işlərin və xidmətlərin təqdim edilməsi vergitutma məqsədləri üçün malların, işlərin və xidmətlərin idxalına və ixracına bərabər tutulur.*[5]

*16.1-1. Azad Zona rezidentlərinin, Azad Zona səlahiyyətli qurumunun, Azad Zona inzibati müəssisələrinin və Azad Zona hüquqi şəxslərinin işçilərinin gəlirlərinə vergilərin tətbiqi və tutulması qaydası Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalarla və həmin qaydalarda nəzərdə tutulan hallarda əsas iqtisadiyyatın qanunvericiliyi ilə tənzimlənir.*[6]

*16. 2. Azad Zona səlahiyyətli qurumu, Azad Zona inzibati müəssisələri və Azad Zona hüquqi şəxsləri əsas iqtisadiyyatın vergi ödəyicisinə malları, işləri, xidmətləri təqdim edərsə, yaxud əsas iqtisadiyyatın vergi ödəyicisi Azad Zona səlahiyyətli qurumuna, Azad Zona inzibati müəssisələrinə, Azad Zona hüquqi şəxslərinə və ya Azad Zona rezidentlərinə malları, işləri, xidmətləri təqdim edərsə, belə mallar, işlər və xidmətlər üzrə əsas iqtisadiyyatın vergi ödəyicisinə əsas iqtisadiyyat qanunvericiliyinin müddəaları tətbiq edilir. Əsas iqtisadiyyatın vergi ödəyiciləri tərəfindən Azad Zona səlahiyyətli qurumuna, Azad Zona inzibati müəssisələrinə və Azad Zona hüquqi şəxslərinə malların, işlərin və xidmətlərin təqdim edilməsi ilə bağlı aparılan ödəmələrdən ödəmə mənbəyində vergilərin tutulması həyata keçirilmir.*[7]

~~16.3. Əsas iqtisadiyyata aid olan şəxslər Azad Zona hüquqi şəxslərinə və ya Azad Zona rezidentlərinə mallar, işlər, xidmətlər təqdim edərsə, əsas iqtisadiyyata aid olan şəxslərə belə mallar, işlər, xidmətlər üzrə əsas iqtisadiyyat qanunvericiliyinin müddəaları tətbiq edilir.~~[8]

16.4. Əsas *iqtisadiyyatın vergi ödəyicisində* aparılan vergi yoxlamaları zamanı vergi orqanları tərəfindən üçüncü şəxslər qismində Azad Zona hüquqi şəxsi ilə aparılmış əməliyyatlar barədə məlumatların əldə edilməsi Azad Zona səlahiyyətli qurumu vasitəsi ilə həyata keçirilir. Azad Zona səlahiyyətli qurumu tərəfindən məlumatlar əsas iqtisadiyyat qanunvericiliyinə uyğun təqdim edilir.[9]

***Maddə 16-1. Maliyyə xidmətləri***

*Azad Zona səlahiyyətli qurumuna, Azad Zona inzibati müəssisələrinə və Azad Zona hüquqi şəxslərinə əsas iqtisadiyyatın vergi ödəyiciləri tərəfindən maliyyə bazarlarında xidmətlər göstərildikdə, belə xidmətlər üzrə əsas iqtisadiyyatın vergi ödəyicilərinə Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalar nəzərə alınmaqla, əsas iqtisadiyyat qanunvericiliyinin müddəaları tətbiq edilir.*[10]

**Maddə 17. Azad Zonada gömrük işi**

*17.1. Azad Zona səlahiyyətli qurumu, Azad Zona inzibati müəssisələri və Azad Zona hüquqi şəxsləri tərəfindən Azad Zonaya gətirilən və Azad Zonadan aparılan mallara və nəqliyyat vasitələrinə görə gömrük rəsmiləşdirilməsi üçün ödənilən yığımlardan başqa digər gömrük ödənişləri, o cümlədən gömrük rüsumu və vergilər tətbiq edilmir.*

*17.2. Mallar və nəqliyyat vasitələri əsas iqtisadiyyatın vergi ödəyiciləri tərəfindən Azad Zonadan əsas iqtisadiyyata gətirildikdə və əsas iqtisadiyyatdan Azad Zonaya aparıldıqda, belə mallara və nəqliyyat vasitələrinə gömrük rəsmiləşdirilməsi zamanı əsas iqtisadiyyat qanunvericiliyinin müddəaları tətbiq edilir.*[11]

17.3. Əsas iqtisadiyyatın gömrük qurumu Azad Zonada gömrük qaydalarının tətbiq edilməsi üçün müvafiq gömrük qurumu yaradır. Müvafiq gömrük qurumu öz fəaliyyətini Azad Zona qanunvericiliyinə, *və həmin qanunvericilikdə nəzərdə tutulduğu halda və qaydada əsas iqtisadiyyat qanunvericiliyinə*, qabaqcıl beynəlxalq təcrübəyə, beynəlxalq standartlara və Azad Zonanın strateji məqsədlərinə uyğun həyata keçirir.[12]

17.4. Azad Zona səlahiyyətli qurumu Azad Zonaya *gətirilən və Azad Zonadan aparılan mallar və nəqliyyat vasitələri* ilə bağlı tənzimləməni təmin etmək üçün gömrük tələblərini əhatə edən daxili qaydalar qəbul edir. Daxili qaydalarda aşağıdakılar göstərilir:[13]

17.4.1. Azad Zonaya *gətirilən və Azad Zonadan aparılan malların və nəqliyyat vasitələrinin* rəsmiləşdirilməsi və nişanlanması qaydaları və tələbləri;[14]

17.4.2. malların *və nəqliyyat vasitələrinin* rəsmiləşdirilməsi ilə bağlı prosedurlar və icra qaydaları;[15]

17.4.3. sadə və səmərəli gömrük rəsmiləşdirilməsi qaydalarını təmin etmək məqsədi ilə müvafiq gömrük qurumunun və əsas iqtisadiyyatın gömrük qurumunun birgə fəaliyyəti ilə bağlı qaydalar;

17.4.4. gömrük sahəsində tətbiq oluna biləcək hər hansı sənəd və ya xidmət üçün haqq;

17.4.5. gömrük agentlərinin və ya brokerlərin xidmətlərindən istifadə qaydaları;

17.4.6. Azad Zonanın strateji məqsədlərinə nail olmaq üçün digər məsələlər.

**Maddə 18. Azad Zonada sərhəd rejimi**

Azad Zonanın sərhədi və ya sərhədinin bir hissəsi Azərbaycan Respublikasının dövlət sərhədi ilə və ya dövlət sərhədindən buraxılış məntəqəsi ilə üst-üstə düşərsə, Azad Zonanın həmin ərazisində dövlət sərhədi rejimi tətbiq olunur. Bu halda dövlət sərhədi rejimi qaydaları və Azad Zonanın ərazisində dövlət sərhədindən buraxılış məntəqəsinin hüdudları Azad Zonanın Səlahiyyətli Qurumu və Dövlət Sərhəd Xidməti tərəfindən müəyyən edilir.

**Maddə 19. Azad Zona ərazisi**

19.1. Müvafiq icra hakimiyyəti orqanı Azad Zona səlahiyyətli qurumuna Azad Zona ərazisindən birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ verir.

19.2. Azad Zona səlahiyyətli qurumunun Azad Zona ərazisinin istənilən hissəsini istifadəyə, icarəyə vermək və ya barəsində başqa şəkildə sərəncam vermək hüququ vardır. *Azad Zona səlahiyyətli qurumu bu Qanunun 16.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulan subyektlərin fəaliyyəti üçün təminedici xarakter daşıyan əsas iqtisadiyyatın vergi ödəyicilərinin fəaliyyət göstərməsi üçün Azad Zona ərazisinin bir hissəsini Azad Zonanın gömrük ərazisi sayılmayan və əsas iqtisadiyyat qanunvericiliyinin Azad Zonanın maraq və mənafelərinə xələl gətirməmək şərtilə tətbiq edildiyi ərazi kimi ayıra bilər.*[16]

19.3. Azad Zona səlahiyyətli qurumu Azad Zonada torpaq münasibətlərinin tənzimlənməsi məqsədi ilə daxili qaydalar formasında torpaq qaydaları qəbul edir. Torpaq qaydalarında aşağıdakılar göstərilir:

19.3.1. Azad Zona torpağının inkişafı ilə bağlı qaydalar və prosedurlar;

19.3.2. Azad Zona torpağının inkişaf potensialını artırmaq məqsədi ilə Azad Zona torpağına dair sərəncam, o cümlədən istifadə, icarə, təminat və yüklülük hüquqlarının yaradılması və onlara xitam verilməsi qaydaları və tələbləri;

19.3.3. bu Qanunun 14.1.3-cü maddəsinə əsasən yaradılan, Azad Zona torpağına dair hüquqların yaradılmasını və onlara xitam verilməsini təsdiq edən reyestrin aparılması;

19.3.4. Azad Zonanın strateji məqsədlərinə nail olmaq üçün digər məsələlər.

19.4. ~~Developerə,~~ Azad Zona inzibati müəssisələrinə, Azad Zona hüquqi şəxslərinə və Azad Zona rezidentlərinə Azad Zona ərazisində əmlak, icarə və digər hüquqlara malik olmağa icazə verilir.[17]

19.5. Azad Zona torpağına dair bütün hüquqlar reyestrdə qeydiyyata alınır.

**Maddə 20. Azad Zonada əmək qaydaları**

Azad Zona səlahiyyətli qurumu Azad Zona daxilində əmək münasibətlərini tənzimləmək, o cümlədən əməyin təhlükəsizliyini təmin etmək və sosial təminat məsələlərini həyata keçirmək məqsədi ilə daxili qaydalar formasında əmək qaydaları qəbul edir.

**Maddə 21. Ezam olunan heyət**

21.1. Azad Zona səlahiyyətli qurumunun və ya Azad Zona inzibati müəssisəsinin müraciətinə əsasən, əsas iqtisadiyyatın müvafiq orqanı Azad Zonada müəyyən hüquqları və vəzifələri yerinə yetirmək üçün öz işçilərindən ibarət heyəti ezam edir.

21.2. Ezam olunan heyətə aşağıdakılar tətbiq olunur:

21.2.1. əsas iqtisadiyyatın müvafiq orqanı ixtisaslı və təcrübəli kadrlar haqqında məlumatları Azad Zona səlahiyyətli qurumuna təqdim edir. Azad Zona səlahiyyətli qurumu həmin kadrlardan ezam olunan heyəti seçir;

21.2.2. ezam olunan heyət əsas iqtisadiyyatın müvafiq orqanının işçisi olaraq qalmaqla həmin orqandan əmək haqqı alır;

21.2.3. Azad Zona səlahiyyətli qurumu və ya müvafiq Azad Zona inzibati müəssisəsi ezam olunan heyətə əlavə ödənişlər edə və ya başqa həvəsləndirici tədbirlər görə bilər;

21.2.4. ezam olunan heyətin hüquq və vəzifələri, həmçinin onlara dair tələblər daxili qaydalar ilə müəyyən edilir. Ezam olunan heyətin fəaliyyəti Azad Zona səlahiyyətli qurumu və ya müvafiq Azad Zona inzibati müəssisəsi tərəfindən idarə edilir.

**Maddə 22. Azad Zonada miqrasiya**

Azad Zona səlahiyyətli qurumu Azad Zonada miqrasiya ilə bağlı prosesləri tənzimləyən, o cümlədən viza növlərini və

hər bir viza növü üçün tələb və qaydaları müəyyən edən daxili qaydalar formasında miqrasiya qaydaları qəbul edir.

**Maddə 23. Azad Zonada ətraf mühitin mühafizəsi**

Azad Zona səlahiyyətli qurumu Azad Zona daxilində ətraf mühitin mühafizəsi ilə bağlı münasibətlərin tənzimlənməsi məqsədi ilə daxili qaydalar formasında ətraf mühit qaydaları qəbul edir.

**Maddə 24. Azad Zonada investorların hüquqlarının qorunması**

24.1. Azad Zonada fəaliyyət göstərmək hüququ əldə etmiş Azad Zona hüquqi şəxslərinə hər hansı milliləşdirmə, müsadirə tədbirləri və ya *Azad Zonanın səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalarda nəzərdə tutulmuş hallar istisna olmaqla,* özəl mülkiyyətə aid hər hansı digər məhdudiyyət tətbiq edilə bilməz. [18]

24.2. *Azad Zona hüquqi şəxsləri, onların investor və səhmdarları, habelə Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalarda nəzərdə tutulduğu hallarda Azad Zona rezidentləri Azad Zonaya investisiya qoymaq və Azad Zonadakı* fəaliyyətlərindən əldə etdikləri pul vəsaitlərini məhdudiyyətsiz xaricə köçürmək hüququna malikdirlər. [19]

24.3. *Azad Zona hüquqi şəxslərinin, onların işçilərinin, investor və səhmdarlarının, habelə Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi qaydalarda nəzərdə tutulduğu hallarda Azad Zona rezidentlərinin* heç bir məhdudiyyət olmadan, hər hansı xarici valyuta ilə işləməyə və əməliyyatlar aparmağa hüququ vardır.[20]

## 4-cü fəsil
## MÜBAHİSƏLƏRİN HƏLLİ

**Maddə 25. Mübahisələrin həlli qurumları**

25.1. Azad Zona səlahiyyətli qurumu aşağıdakılardan bir və ya bir neçəsinin yaradılmasını təmin edir:

25.1.1. Arbitraj mərkəzi;

25.1.2. mübahisələrin digər həlli qurumu.

25.2. Azad Zona səlahiyyətli qurumu Azad Zona daxilində mübahisələrin həlli qurumlarının fəaliyyətinin təmin edilməsi, onlar tərəfindən mübahisələrə baxılması və mübahisələrin həlli ilə bağlı münasibətlərin tənzimlənməsi məqsədi ilə daxili qaydalar formasında mübahisələrin həlli qaydalarını qəbul edir.

**Maddə 26. Mübahisələrin həlli qurumlarının yurisdiksiyası**

26.1. Tərəflər müqavilə ilə başqa cür razılaşmadıqda, mübahisələrin həlli qurumları Azad Zona səlahiyyətli qurumunun, Azad Zona inzibati müəssisələrinin, Azad Zona hüquqi şəxslərinin və onların işçilərinin, Azad Zona rezidentlərinin ~~mülki, *kommersiya,* əmək və inzibati~~ mübahisələrinin və ya Azad Zona və onun fəaliyyəti ilə bağlı olan hər hansı digər mübahisənin həlli və təfsiri üçün müstəsna yurisdiksiyaya malikdirlər.[21]

26.2. Tərəflər müqavilə ilə başqa cür razılaşmadıqda, əsas iqtisadiyyat məhkəmələri Azad Zona səlahiyyətli qurumunun, Azad Zona inzibati müəssisələrinin, Azad Zona hüquqi şəxslərinin və onların işçilərinin, Azad Zona rezidentlərinin tərəfi olduqları mübahisələrə və ya Azad Zona və onun fəaliyyəti ilə bağlı olan hər hansı digər mübahisəyə, bu Qanunda göstərilən hallar istisna olmaqla, baxmaq səlahiyyətinə malik deyildir.

26.3. Azad Zona mübahisələrin həlli qurumlarının müstəsna yurisdiksiyasına aid edilən məsələlərə əsas iqtisadiyyatın məhkəmə orqanları və mübahisələrin digər həlli qurumları tərəfindən baxıla bilməz. Azad Zona mübahisələrin həlli qurumları tərəfindən qəbul edilmiş qərarlar icra sənədi hesab edilir və bu qərarlar, Azad Zona apellyasiya qurumları istisna olmaqla, digər məhkəmə və ya arbitraj tərəfindən ləğv edilə, dəyişdirilə və ya etibarsız hesab edilə bilməz.

**Maddə 27. Mübahisələrin həlli qurumlarının qərarlarının icrası**

27.1. Mübahisələrin həlli qurumları tərəfindən qəbul edilən qərarlar Azad Zonada və əsas iqtisadiyyatda hər hansı bir tanınma və ya təsdiqləmə olmadan icra edilir.

27.2. Mübahisələrin həlli qurumlarının müstəsna yurisdiksiyasına aid edilən işlər istisna olmaqla, əsas iqtisadiyyatın məhkəmə və mübahisələrin digər həlli qurumları tərəfindən qəbul edilmiş qərarlar Azad Zonada icra olunur.

27.3. Xarici məhkəmə, tribunal*, digər məhkəmə orqanları və ya arbitraj tərəfindən Azad Zonanın ərazisində fəaliyyətdən irəli gələn mübahisə ilə bağlı* qəbul edilmiş qərarların icrası Azad Zonada həyata keçirilən fəaliyyətlə və ya orada yerləşən əmlak və aktivlərlə məhdudlaşır. Bu qərarlar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında, beynəlxalq müqavilələr olmadıqda isə Azad Zona səlahiyyətli qurumunun qərarı ilə icra olunur.[22]

**Maddə 28. Azad Zonada mübahisələrin həlli qurumlarının maliyyələşdirilməsi**

28.1. Mübahisələrin həlli qurumları Azad Zona səlahiyyətli qurumu tərəfindən ayrılan vəsaitlər və xidmətlərinə görə haqlar və ödənişlər hesabına maliyyələşdirilir.

28.2. Mübahisələrin həlli qurumlarının büdcəsi Azad Zona səlahiyyətli qurumu tərəfindən müəyyən edilir.

## 5-ci fəsil
## YEKUN MÜDDƏALARI

**Maddə 29. Məsuliyyətin məhdudlaşdırılması**

Saxtakarlıq, kobud ehtiyatsızlıq və ya qəsdən pozuntu halları istisna olmaqla, öz hüquqlarını, vəzifələrini və məsuliyyət dairəsinə daxil olan işləri həyata keçirərkən və ya Azad Zona qanunvericiliyinin tətbiqi ilə əlaqədar olaraq, Azad Zona səlahiyyətli qurumunun və ya Azad Zona inzibati müəssisəsinin işçiləri hər hansı hərəkətə və ya hərəkətsizliyə görə məsuliyyət daşımırlar.

**Maddə 30. Azad Zonanın işçi dili**

Azad Zonada Azərbaycan dili ilə yanaşı işçi dil kimi ingilis dili, zərurət yarandıqda başqa dillər də işlədilə bilər. Sənədlərdən və ya rabitə vasitələrindən istifadə zamanı dil baxımından şərh uyğunsuzluğu yarandıqda, tərəflərin razılaşmasında nəzərdə tutulan dildəki mətn üstünlük təşkil edir.

**Maddə 31. Bu Qanunun qüvvəyə minməsi**

31.1. Bu Qanun "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda Ələt azad iqtisadi zonasının fəaliyyəti ilə bağlı müvafiq hüquqi tənzimləmə təsbit edildikdən sonra qüvvəyə minir.

31.2. Bu Qanunun 14, 15, 16, *16-1*, 17, 19.2, 19.4, 19.5, 24, 25.1, 26, 27 və 28-ci maddələri, bu Qanunun 31.1-ci maddəsi nəzərə alınmaqla, Azad Zona Səlahiyyətli qurumu tərəfindən qəbul ediləcək daxili qaydalarla eyni gündə qüvvəyə minir.[23]

***Maddə 32. Keçid müddəası***[24]

*Bu Qanunda nəzərdə tutulmuş Azad Zona səlahiyyətli qurumu və onun İdarə Heyəti formalaşana qədər Azad Zona səlahiyyətli qurumunun və İdarə Heyətinin hüquqlarını və vəzifələrini müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan müvəqqəti idarəetmə qurumu həyata keçirir.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 may 2018-ci il
1143-VQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 30 sentyabr 2019-cu il tarixli **1670-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 noyabr 2019-cu il, 262 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1680**)
2. 29 iyun 2020-ci il tarixli **150-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 iyul 2020-ci il, 134 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 856**)
3. 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**)
4. 23 dekabr 2022-ci il tarixli **761-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı , 12 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 13 yanvar 2023-cü il, 7, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 28**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 1.0.7-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1.0.7. Azad Zona rezidenti – Azad Zonada yaşamaq üçün icazəsi olan hər hansı fiziki şəxs;~~

[2] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə yeni məzmunda 1.0.17-1-ci və 6.1.16-1-ci maddələr əlavə edilmişdir.

[3] 23 dekabr 2022-ci il tarixli **761-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 12 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 13 yanvar 2023-cü il, 7, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 28**) ilə 3.2-ci maddəsində "**bu Qanunda**" sözləri "**Azad Zona qanunvericiliyində**" sözləri ilə əvəz edilmişdir.

[4] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 4-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**Maddə 4. Azad Zonada cinayət qanunvericiliyi**~~

~~Azad Zonada əsas iqtisadiyyatın cinayət qanunvericiliyi tətbiq edilir.~~

[5] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 16.1-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~16.1. Azad Zona səlahiyyətli qurumu, Azad Zona inzibati müəssisələri, Azad Zona hüquqi şəxsləri və onların işçiləri, Azad Zona rezidentləri Azad Zonada fəaliyyətlərinə aid olan bütün vergilərdən azaddırlar.~~

[6] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə yeni məzmunda 16.1-1-ci maddə əlavə edilmişdir.

[7] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 16.2-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~16.2. Azad Zona hüquqi şəxsləri və ya Azad Zona rezidentləri əsas iqtisadiyyatdakı hər hansı vergi ödəyicisinə malları, işləri, xidmətləri təqdim edərsə, belə mallar, işlər, xidmətlər üzrə əsas iqtisadiyyatın vergi ödəyicisinə əsas iqtisadiyyat qanunvericiliyinin müddəaları tətbiq edilir.~~

[8] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 16.3-cü maddə ləğv edilmişdir.

[9] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 16.4-cü maddədə "**iqtisadiyyata aid olan şəxslərdə**" sözləri "**iqtisadiyyatın vergi ödəyicisində**" sözləri ilə əvəz edilmişdir.

[10] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə yeni məzmunda 16-1-ci maddə əlavə edilmişdir.

[11] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 17.1-ci və 17.2-ci maddələr yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~17.1. Azad Zonaya idxal edilən mallara, işlərə, xidmətlərə görə gömrük rüsumları və vergilər ödənilmir.~~

~~17.2. Mallar Azad Zonadan əsas iqtisadiyyata və əsas iqtisadiyyatdan Azad Zonaya gətirildikdə, bu cür mallara əsas iqtisadiyyat qanunvericiliyinin müddəaları tətbiq edilir.~~

[12] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 17.3-cü maddənin ikinci cümləsinə "**Azad Zona qanunvericiliyinə**" sözlərindən sonra "**və həmin qanunvericilikdə nəzərdə tutulduğu halda və qaydada əsas iqtisadiyyat qanunvericiliyinə,** " sözləri əlavə edilmişdir.

[13] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 17.4-cü maddənin birinci abzasının birinci cümləsində "**və Azad Zonadan idxal və ixrac olunan mallar, işlər, xidmətlər**" sözləri "**gətirilən və Azad Zonadan aparılan mallar və nəqliyyat vasitələri** " sözləri ilə əvəz edilmişdir.

[14] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 17.4.1-ci maddədə "**idxal olunan və Azad Zonadan ixrac olunan malların, işlərin, xidmətlərin**" sözləri "**gətirilən və Azad Zonadan aparılan malların və nəqliyyat vasitələrinin** " sözləri ilə əvəz edilmişdir.

[15] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 17.4.2-ci maddədə "**, işlərin, xidmətlərin** " sözləri "**və nəqliyyat vasitələrinin**" sözləri ilə əvəz edilmişdir.

[16] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 19.2-ci maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[17] 22 iyun 2022-ci il tarixli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148**) ilə 19.4-cü maddədən "**Developerə,**" sözü çıxarılmışdır.

[18] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 24.1-ci maddəyə "**və ya**" sözlərindən sonra "**Azad Zonanın səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalarda nəzərdə tutulmuş hallar istisna olmaqla,**" sözləri əlavə edilmişdir.

[19] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 24.2-ci maddədə "**İnvestorlar, səhmdarlar, Azad Zona rezidentləri, Azad Zona hüquqi şəxsləri Azad Zonaya investisiya qoymaq və**" sözləri "**Azad Zona hüquqi şəxsləri, onların investor və səhmdarları, habelə Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi daxili qaydalarda nəzərdə tutulduğu hallarda Azad Zona rezidentləri Azad Zonaya investisiya qoymaq və Azad Zonadakı**" sözləri ilə əvəz edilmişdir.

[20] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 24.3-cü maddədə "**İnvestorların, səhmdarların, Azad Zona rezidentlərinin, Azad Zona hüquqi şəxslərinin və onların işçilərinin,**" sözləri "**Azad Zona hüquqi şəxslərinin, onların işçilərinin, investor və səhmdarlarının, habelə Azad Zona səlahiyyətli qurumunun qəbul etdiyi qaydalarda nəzərdə tutulduğu hallarda Azad Zona rezidentlərinin**" sözləri ilə əvəz edilmişdir.

[21] 29 iyun 2020-ci il tarixli **150-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 iyul 2020-ci il, 134 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 856**) ilə 26.1-ci maddəsində "**iqtisadi**" sözü "**kommersiya**" sözü ilə əvəz edilmişdir.

22 iyun 2022-ci il tarixli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148**) ilə 26.1-ci maddədən "**mülki, kommersiya, əmək və inzibati**" sözləri çıxarılmışdır.

[22] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 27.3-cü maddənin birinci cümləsində "**və ya digər məhkəmə orqanları tərəfindən**" sözləri "**, digər məhkəmə orqanları və ya arbitraj tərəfindən Azad Zonanın ərazisində fəaliyyətdən irəli gələn mübahisə ilə bağlı** " sözləri ilə əvəz edilmişdir.

[23] 22 iyun 2022-ci il tarixli **550-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 iyul 2022-ci il, 148 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 7, maddə 701**) ilə 31.2-ci maddəyə "**16**" rəqəmlərindən sonra "**, 16-1**" rəqəmləri əlavə edilmişdir.

[24] 30 sentyabr 2019-cu il tarixli **1670-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 noyabr 2019-cu il, 262 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1680**) ilə yeni məzmunda 32-ci maddə əlavə edilmişdir.